# *MƏKTƏB VƏ PEDAQOJİ FİKİR TARİXİ*

## NƏSİRƏDDİN TUSİ YARADICILIĞINDA TƏRBİYƏ MƏSƏLƏLƏRİ

**İradə Əmirəliyeva,**
*pedaqogika üzrə fəlsəfə doktoru,*
*aparıcı elmi işçi*
*Azərbaycan Respublikası Təhsil İnstitutu*
E-mail: amiraliyeva_i@mail.ru

**Rəyçilər**: *ped.ü.elm.dok., prof.* A.N. Abbasov,
*ped.ü.fəls.dok.* L.A. Məmmədli

***Açar sözlər**: Tusinun yaradıcılığı, tərbiyəyə dair fikirlər, ailə tərbiyəsi, valideynə hörmət, əxlaq nəzəriyyəsi*

***Ключевые слова**: творчество Туси, мысли о воспитании, семейное воспитание, уважение родителем, теория о морали*

***Keywords:** Tusi's creativity, thoughts about upbringing, family education, respect by the parent, moral theory*

Astronom, filosof, riyaziyyatçı, coğrafiyaşünas, ilahiyyat və ürfan əhli Xacə Nəsirəddin Tusi Azərbaycan xalqının dünya elm və mədəniyyətinə bəxş etdiyi çox böyük mütəfəkkirdir. Tusi Şərq xalqlarının elm-maarif və pedaqoji fikir tarixində özünəməxsus rol oynayır. O, etika, fəlsəfi və pedaqoji fikir tarixində Şərq xalqlarının əxlaq nəzəriyyəçisi kimi dəyərləndirilir. Tusi irsi bütün Yaxın və Orta Şərqin ensiklopedik bilik xəzinəsi rolunu oynayır.

Nəsirəddin Tusi XIII əsrin əvvəllərində Tus şəhərində anadan olmuş, ilk təhsilini atasından almışdır.

Abbasi xəlifəsi Məmunun göstərişi ilə yunan filosoflarının əsərləri ərəb dilinə çevrilmişdi. Bu, islam alimlərinin yunan fəlsəfəsi ilə yaxından tanış olmalarına imkan və şərait yaratmışdır. Nəticədə alimlər yunan fəlsəfəsini islam əqidə əsaslarına tətbiq etməyə başlamış, fəlsəfə və kəlam elmlərinin inkişafına nail olmuşlar. İsmaililər Aristotelin on əql nəzəriyyəsini öz dini mənsəb və dərəcələrinə tətbiq edirdilər.

Nəsirəddin Tusinin fəlsəfi dünyagörüşünün, etnik baxışlarının formalaşmasında qədim yunan fəlsəfəsinin nümayəndələri – Fales, Platon, Aristotel, orta əsr filosoflarından M. Qəzali, Bəhmənyar, əl-Fərabi, Biruni, İbn Sinanın böyük təsiri olmuşdur. Hətta onu İbn Sinanın görkəmli davamçısı kimi qələmə verirdilər.

Bəzi mühafizəkar islamçılar isə fəlsəfənin də, kəlam elminin də əleyhdarları idilər. Tusi kimi alimlər bir çox maneələrə rast gəlirdilər. Öz fəlsəfi baxışlarına görə Tusi ömrünün 22 ilini Ələmut qalasında keçirmişdi. Digər bir səbəb "Əxlaqi-Nasiri"dəki mütərəqqi ideyaların müsəlman ruhanilərini qəzəbləndirməsi ola bilərdi.

Abaqa xan Hülaku xanın ölümündən sonra (1265) hakimiyyətə keçmiş və Tusini özünə vəzir təyin etmişdi.

Mühafizəkar islamçıların səyləri səmərəsiz qalmış, onlar elmdəki inkişafın qabağını ala bilməmişlər. Tusi Ələmut qalasında olduğu illərdə bir çox əsərlər, o cümlədən "Əxlaqi Nasir" əsərini yazmışdır. Son yeddi yüz il ərzində fars dilində "Əxlaqi-Nasiri" kimi qiymətli, əhəmiyyətli, tərbiyələndirici və təhsilləndirici səciyyəli ikinci orijinal əsər meydana gəlməmişdir. O dövrlərdə digər alimlər tərəfindən qələmə alınan "Əxlaqi-Nasiri" tipli kitablar ("Əxlaqi-Cəlali", "Əxlaqi-Möhsini", "Əxlaqi-Mənsuri" və "Əxlaqi-Cəmali") yalnız təqlidi səciyyə kəsb etmiş, uğur qazanmamışlar.

"Əxlaqi Nasiri"nin başlıca mövzusu insan mənəviyyatı, onun kamilliyə çatması məsələsidir.

Tusi vəzir kimi fəaliyyətdə olarkən "dövlət" və "cəmiyyət" haqqında dəyərli nəzəri ideyalar irəli sürmüş, beləliklə Azərbaycanın siyasi fikir tarixində ilk dövlət nəzəriyyəsi olduğunu sübuta yetirmişdir.

Tusinin "hikmət", "elm", və "əməl"ə verdiyi təriflər mütərəqqi elm baxımından hələ indi də öz əhəmiyyətini itirməmişdir. Tusi hər nəzəriyyə və praktikanın deyil, məhz tərəqqiyə, irəliləyişə, həm mənəvi, həm də maddi yüksəlişlərə səbəb olan hikmət, elm və təcrübəni qəbul edir.

Nəsirəddin Tusinin bütün dünyada şöhrətli alim olmasına səbəb dahi mütəfəkkirin riyaziyyat və nücum elmlərinə dair qələmə aldığı "Zic Elxani" əsəri və Marağa rəsədxanasıdırsa, Şərq xalqlarına sevdirən "Əxlaqi-Nasiri" (1) əsəri olub.

Tusi "Əxlaqi-Nasiri"də özünü usta müəllim, təcrübəli bir tərbiyəçi kimi təsdiq edir. Kitabda o, fitri qabiliyyət və istedadların, mühitin və şəraitin şəxsiyyətə təsirini açıqlayır. Bu sahədə təlim və tərbiyənin böyük rolunu göstərir.

"Əxlaqi-Nasiri"(1) "Müqəddimə və kitabın yazılmasının səbəbi", "İlk qeydlər və elmlərin bölgüsü", 3 məqalə və 30 fəsli özündə birləşdirir.

Pedaqoji baxımdan və ailə tərbiyəsi nöqteyi-nəzərindən əsərdəki Tusinin əxlaqın saflaşdırılmasına, nəfs toxluğuna həsr etdikləri bölmələr, bundan başqa "Ailə dolandırmaq və evdarlıq qaydaları haqqında", "Övlad saxlamaq və tərbiyə etmək qaydaları haqqında", "Ata-anaların haqqını yerinə yetirmək, onların razılıqlarını qazanmaq yolları haqqında" və s. fəsillər daha çox diqqəti cəlb edir.

"Ailə dolandırmaq və evdarlıq qaydaları haqqında" fəsli gənc nəslin müstəqil ailə həyatına, nikah-ailə münasibətlərinə hazırlamaq baxımından faydalıdır. Tusiyə görə, "Evlənməyin səbəbi iki şey olmalıdır: malın mühafizəsi, nəslin davamı. ...Arvadın ən yaxşısı odur ki, ağıl dəyanət, iffət, həya, ismət, riqqət və nəzakətdə, üzüyolalıqda, ərinin sözünə baxmaqda, fədakarlıqda, dostluqda misli olmaya, qohum-əqrəbaları arasında vüqarlı, hörmətli, hümmətli hesab edilə bilə, doğumlu ola, tərbiyə verməkdə, səliqə yaratmaqda, pul xərcləməkdə, təsərrüfatı idarə etməkdə mahirlik göstərə, qayğıkeşliyi, mehribanlığı, şux təbiəti, xoş xasiyyəti ərinin könlünü açmağa, dərdini dağıtmağa səbəb ola" (1, 152).

Evripid demişdir: "Qadının pisi qədər pis, yaxşısı qədər də yaxşı bir varlıq yoxdur".

Fridrix Nitsşenin sözləridir: "Qadın tanrının ilk xətasıdır".

Bernard Şoy deyirdi: "Qadın ərə gedənə qədər, kişi isə evləndikdən sonra gələcəyindən narahat olur".

Sokratın belə kəlamı var: "Evlənərkən qarşına yaxşı qadın çıxarsa – xoşbəxt olacaqsan, ağılsızı çıxarsa – filosof".

İndi Nəsirəddin Tusinin yuxarıdakı sözlərinə münasibət bildirək. Böyük mütəfəkkir həyat yoldaşı kimi seçiləcək qızın, qadının ən gözəl, nümunəvi keyfiyyətlərini birər-birər sadalamışdır. Bir daha diqqət edək: ağıl dəyanət, iffət, həya, ismət, riqqət və nəzakətdə, üzüyolalıqda, ərinin sözünə baxmaqda, fədakarlıqda, dostluqda misli olmaya, qohum-əqrəbaları arasında vüqarlı, hörmətli, hümmətli hesab edilə bilə, doğumlu ola, tərbiyə verməkdə, səliqə yaratmaqda, pul xərcləməkdə, təsərrüfatı idarə etməkdə mahirlik göstərə, qayğıkeşliyi, mehribanlığı, şux təbiəti, xoş xasiyyəti ərinin könlünü açmağa, dərdini dağıtmağa səbəb ola" (1, 152). Belə qadınla, təbii ki, insan ömrünün axırına kimi xoşbəxt həyat sürər və cəmiyyətə layiq övladlar tərbiyə edər. Xoşbəxt ailə həyatı insanın ömrünü də uzadır.

Belinski demişkən, "Qadın - həyatın bütün mərhələlərində kişinin xilaskarıdır". Bəli, istər-istəməz bu fikri müdafiə etməliyik. Çünki həmin sözlərdə dərin həqiqət vardır.

Nəsirəddin Tusi məsləhət görürdü ki, ailə qurmaq istərkən qadını gözəllik xatirinə almayasınız. Bunun səbəbini belə izah edirdi ki. gözəlliklə iffət az halda bir yerdə olurlar.

Bu fikirlə razılaşmaq da olar, razılaşmamaq da. o qədər gözəl qadınlar olub və var ki, ərini də xoşbəxt edib, uşaqlarını da düzgün tərbiyələndirib və onlara nümunə olub. Lakin öz həyat yoldaşlarını peşman edən bəzi gözəl qadınlar da olub və vardır. Bu kimi hallar isə, ailənin dayaqlarını sarsıdır, boşanma labüd olur. odur ki, Tusi orta gözəlliklə kifayətlənməyi məqsədəuyğun hesab edirdi.

"Əxlaqi_Nasiri"dəki "Övlad saxlamaq və tərbiyə etmək qaydaları haqqında" xüsusi diqqəti cəlb edir. Tusi uşağı tərbiyə etmək işini təxirə salmamağı, erkən yaşlarından bununla məşğul olmağı tövsiyə edirdi. Dahi alimin belə bir fikri xüsusilə önəmlidir ki, "Uşaq süddən ayrıldıqdan sonra korlanmağa vaxt tapmamış onu tərbiyə etməyə, nizam-intizama öyrətməyə başlamaq lazımdır" (1, 156).

Tusi uşağın təbiətini korlaya biləcək adamlarla oturub-durmağa və oynamağa qoymamağı tərbiyənin birinci şərti hesab edirdi. Bunun səbəbini belə aydınlaşdırırdı: "Çünki uşaq

nəfəsi sadə olar, ətrafdakıların xasiyyətini tez götürər. Uşaqları pis adətlərə, bəd əməllərə nifrət yaratmaq lazımdır (1,157). ...Nalayiq sözlər eşitmək, şit zarafatlara qulaq asmaq, lağlağıların şahidi olmaqdan çəkindirməli, təlim-tərbiyə tapşırıqlarını yerinə yetirib tam yorulmayınca ona yemək verilməməlidir. elə etmək lazımdır ki, heç bir şeyi gizlətməsin, bir şeyi gizlətmək onun qəbih iş olduğunu başa düşməyi göstərir ( , 158) qəbih iş gizlədildimi, başqa qəbih işləri də gizlətməyə cəsarət edir" (1, 159).

Əsərin "Ata-anaların haqqını yerinə yetirmək, onların razılıqlarını qazanmaq yolları haqqında" fəsli də maraqla qarşılanır. Xacə Nəsirəddin Tusiyə görə, ata-ananın haqqını üç şeylə yerinə yetirmək mümkündür: "Birinci – onları ürəkdən sevmək, sözdə və işdə onların arzularına əməl etmək, ...hörmətlərini saxlamaq, dediklərini yerinə yetirmək, nəvazişli olmaq, mehriban danışmaq" (1, 167);

İkinci – özləri istəməmiş azuqə və zümarda onlara kömək etməli, boyunlarına minnət qoymamalı, əvəzində bir şey tələb etməməli, imkan olduqda daha böyük yardım göstərməli;

Üçüncü – istər gizlin, istərsə açıqda onların xeyirxahı olmalıdır" (1, 168).

Çox doğru-düzgün qənaətlərdir. Bəzi övladlar valideynləri yaşa dolduqda, artıq əmək qabiliyyətlərini itirdikləri, pensiya ümidinə qaldıqları zamanlarda ata-analarının qayğısına lazımınca qalmır, onları tez-tez yoxlamır, necə yaşamaları ilə maraqlanmırlar. Hətta bəziləri ata, yaxud analarını aparıb qocalar evinə qoyurlar. Yaxud da imkansızlıqdan, övlad laqeydliyi səbəbindən valideyn özü qocalar evinə yollanır, hətta dilənçiliyə qurşananlara da rast gəlinir. Bu, çox dəhşətli haldır. Övlad nankorluğundan başqa buna qeyri ad vermək olmur.

Ata-anaların haqqını yerinə yetirməyin və onların razılıqlarını qazanmağın vacibliyini xüsusi vurğulayan Nəsirəddin Tusi yazırdı: "Ata övladın ana bətninə düşməsinin birinci səbəbkarıdır. İkincisi. Övladı tərbiyə edib kamala çatdırır, övlad həm ataya aid olan maddi ləzzətlərdən, ... boy-buxuna çatmaq üçün lazım olan nemətlərdən istifadə edir, həm də onun sayəsində mənəvi məziyyətlərə, tərbiyə, ədəb, savad, elm, mədəniyyət. peşə, sənət, kamilliyə çatmağa səbəb olan nemətlərə yiyələnir" (1, 167).

Maraqlıdır, bütün bunları övladlar necə unuda bilər, ata-ananın haqq-sayını itirə bilərlər?

Əli Kərimin "Qaytar ana borcunu" adlı çox yayılmış bir şeiri var. Mühazirə və seminar məşğələlərində Tusinin "Əxlaqi-Nasiri" əsərindəki "Ata-anaların haqqını yerinə yetirmək, onların razılıqlarını qazanmaq yolları haqqında" fəsli nəzərdən keçirilərkən həmin şeiri tələbələrin diqqətinə çatdırmaq olar. Şeirdə deyilir ki, ərinin vəfatından sonra ana təkbaşına bir oğul böyüdür, ali təhsil verir, onu korluq çəkməyə qoymayır, öz boğazından kəsib balasına yedirir. Amma Bakıda təhsil alan oğulun başı eyş-işrətə, gözəl qızlara qarışaraq ananı unudur, onun məktublarına cavab vermir. Ana dərdini qonşuları Əsmərlə Çiçəyə danışır. Fəqət onlar anaya təsəlli verirlər. Şair axırda ananın dilindən nankor oğula müraciətlə deyir:

*Ana fikirləşdi ki, mən neyləmişəm sənə?*
*Bu nə oğulluq oldu, bu nə məhəbbət oldu?*
*Oğul böyütdümü o, büzmədodaq bir qıza?*
*Qaytar onun ömrünə neçə gecə, neçə gün!*
*Qaytar onun saçının qaralığın geri.*
*Qaytar o dilindəki şirin-şirin sözləri!*
*O sözü, o söhbəti, gülüşü anan verib,*
*Ana dodaqlarından bala dodaqlarına.*
*İndi ondan gen gəzən oğul, ayaqlarına*
*Yerişi anan verib.*
*Qaytarsan o sözləri, sözsüz bir lal olarsan,*
*Qaytarsan o yerişi, yerindəcə qalarsan.*
*Sən ki dərd verdin, oğul, sənə gülüş verənə.*
*Deyirəm ki, o boyu, buxunu qaytar geri!*
*Deyirəm ki, varını, yoxunu qaytar geri!*
*Qaytar onun borcunu,*
*Gülüşünü, adını, sözünü qaytar geri!*
*Qaytar ana borcunu,*
*O borc sənin özünsən, özünü qaytar geri! (2).*

Mühazirə və seminar məşğələlərinin bu şəkildə qurulması, təbii ki, tələbələrin təlim prosesinə marağını artırardı.

**Problemin aktuallığı.** Nəsirəddin Tusi yaradıcılığı təhsil, tərbiyə və inkişafı üçün həmişə zəngin material verir. Nəsirəddin Tusi yaradıcılığına müraciət edilməsi, dahi mütəfəkkirin "Əxlaqi-Nasiri" əsərində tərbiyə məsələlərini diqqət mərkəzinə gətirilməsi aktuallıq kimi dəyərləndirilə bilər.

**Problemin yeniliyi.** Məqalədə Nəsirəddin Tusi yaradıcılığında tərbiyə məsələləri araşdırılır. Müəllif probleme özünəməxsus şəkildə aydınlıq gətirir.

**Problemin praktik əhəmiyyəti.** Məqalədə irəli sürülən fikirlərdən ali təhsil müəssisələrində "Azərbaycanda məktəb və pedaqoji fikir tarixi" fənni üzrə mühazirə və seminar məşğələlərində faydalanmaq mümkündür.

## ƏDƏBİYYAT

1. Xacə Nəsirəddin Tusi. Əxlaqi-Nasiri. Bakı: Elm, 1980.
2. http://kayzen.az/blog/poeziya/7630/qaytar-ana-borcunu-%7C-əli-kərim. html

**И.Б. Амиралиева**

## ВОПРОСЫ ВОСПИТАНИЯ В ТВОРЧЕСТВЕ НАСИРЕДДИНА ТУСИ

***РЕЗЮМЕ***

Творчество Насиреддина Туси всегда порождает материал для образования, воспитания и развития личности. Обращение к творчеству Насиреддина Туси, в частности к вопросам воспитания в произведении «Эхлаги-Насири» великого мыслителя, можно расценивать актуальным. Мыслями, приведенными в статье, можно воспользоваться на лекциях и семинарах по предмету «История школы и педагогической мысли в Азербайджане» в высших учебных заведениях.

**I.B. Amiraliyeva**

## THOUGHTS ON EDUCATION IN THE WORKS OF NASIREDDIN TUSI

***SUMMARY***

Nasireddin Tusi's works always generate material for the education, upbringing and development of personality. Appeal to the work of Nasireddin Tusi, in particular to the issues of education in the work of great thinkers "Ehlagi-Nasiri", can be regarded as relevant. The ideas given in the article can be used in lectures and seminars on the subject "History of school and pedagogical thought in Azerbaijan".

**Redaksiyaya daxil olub:** 13.12.2017